AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 mart 2023-cü il
çərşənbə

1933-cü ildən çıxır
№ 10 (3624)




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.*

*Martın 6-da dövlətimizin başçısı Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə bir qrup Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri martın 6-da ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.*

*Azərbaycan Prezidenti İlham Əliyev martın 6-da Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zatialiləri cənab Vo Van Txıonqa təbrik məktubu ünvanlayıb.*

*Ölkəmizin rəhbəri martın 7-də Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanovun etimadnaməsini qəbul edib.*

# ƏRAZİ BÜTÖVLÜYÜMÜZƏ QƏSD EDƏNLƏR CAVABLARINI ALACAQ

**Prezident İlham Əliyev:** ***"Ermənistanla sülh danışıqları ərəfəsində bu ölkənin rəhbərliyinin son günlərdəki davranışı, əsassız "status" iddialarına və Zəngəzur dəhlizinin açılması istiqamətində fəaliyyətsizliyinə Azərbaycan qətiyyətli cavab verəcək"***

Prezident İlham Əliyev hələ ötən ilin iyun ayında Şərqi Zəngəzura növbəti səfəri zamanı Kəlbəcərdən bir daha separatçılara "Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın" mesajını göndərmişdi. Sözü imzası qədər keçərli olan Qalib Ali Baş Komandan bu qətiyyətli fikirlərilə revanşistlərə, eləcə də Qafqazda müharibə alovunu yenidən qızışdırmaq istəyənlərə qəti şəkildə xəbərdarlıq edərək bildirmişdir ki, istənilən təxribata layiqli cavab veriləcək və bundan ancaq onlar özləri zərər görəcəklər.



Məğlubiyyətilə barışmaq istəməyən terrorçu Ermənistan hakimiyyəti sülh müqaviləsinin imzalanmasını sərsəm və gülünc iddialarla uzadır, bu vaxt müddətində isə çirkin əməllərini həyata keçirməyə çalışır. Martın 5-də törədilən növbəti təxribat da bu qəbildəndir. Təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğlu şəhid oldular. Amma şəhidlərimizin qanı yerdə qalmadı. Görülən cavab tədbiri zamanı separatçılardan biri polkovnik-leytenant, biri mayor, digəri isə leytenant olmaqla 3 zabit məhv edildi.

Baş verən hadisəyə görə, məsuliyyət ilk növbədə Ermənistanın, daha sonra Rusiya sülhməramlı kontingentinin üzərinə düşür. Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlıları martın 5-də gündəlik yaydıqları məlumatlarda baş verən hadisələrdən bəhs etməyiblər. Halbuki separatçıların yaydığı fotolarda sülhməramlıların hadisə yerinə gəldiyi görünür. Onu da əlavə edək ki, hadisənin baş verdiyi yer Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu Laçın yoluna alternativ hesab edilir. Azərbaycanlı fəalların Laçın yolunda aksiya keçirməsindən sonra Ermənistan tərəfi silah və şəxsi heyətin daşınması üçün alternativ gizli yollara əl atıb. Bütün bunlar bir daha onların bəd niyyətindən və törədə biləcəkləri mənfur əməllərindən xəbər verir.

Son hadisə göstərdi ki, sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdəki təxribatçı ünsürlər dərhal tərk-silah edilməlidir. Eyni zamanda, Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılması da təmin olunmalıdır. Şübhə yox ki, Azərbaycan tərəfi ilk gündən ortaya qoyduğu qətiyyətli addımlarını davam etdirərək istəyinə nail olacaq.

Ermənistan yenə də Azərbaycanın Qarabağ iqtisadi rayonuna silah-sursat, həmçinin yanacaq daşıyaraq təcavüzünü, terror siyasətini davam etdirsə, əlbəttə Ordumuz bunun qarşısını cavab əməliyyatları ilə alacaq, 44 günlük Vətən savaşından nəticə çıxarmayan düşmənə və havadarlarına gözdağı verəcək.

Dövlətimizin başçısı İlham Əliyev də haqlı olaraq bəyan edir ki, Ermənistan istənilən təxribatı ilə, çirkin əməllərilə özünə "quyu qazır". Ona görə də məğlub Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir. Çünki İrəvan hakimiyyətinin bu siyasəti Azərbaycanın sərt addımlar atmasına gətirib çıxara bilər.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN QADIN ƏMƏKDAŞLARINA VƏ HƏRBİ QULLUQÇULARINA

***Hörmətli həmkarlar!***

***Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.***

***Azərbaycan Qadını zəngin milli-mənəvi dəyərlərimizin və mədəni irsimizin qorunub saxlanılmasında, nəsildən-nəslə ötürülməsində həmişə müstəsna rol oynamış, fədakarlığı, əzmi, tükənməz enerjisi və sədaqəti ilə hər bir ailənin etibarlı dayağı olmuşdur.***

***Bu gün də öz potensialını davamlı inkişafda olan ölkəmizin qüdrətlənməsinə və xalqın rifahına sərf edən, milli dövlət quruculuğu işlərində əməli fəaliyyəti ilə seçilən Azərbaycan qadını, eyni zamanda vətənpərvər, mübariz ruhlu, milli ideallara sadiq gənc nəslin yetişməsinə misilsiz töhfələr verir.***

***Azərbaycan qadınının təşəbbüskarlığı, tərəqqipərvərliyi, ictimai-siyasi həyatda səyləri, mədəniyyətlərarası dialoqun formalaşdırılmasında xidmətləri dövlətimizin hüdudlarından kənarda da yüksək qiymətləndirilir.***



***Xidmətdə əldə edilən müsbət nəticələrə daxili işlər orqanlarında və Daxili Qoşunlarda çalışan qadınların böyük əməyini də məmnunluqla qeyd edir və bu əlamətdar gündə hər birinizə möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, əzmkar və gərəkli fəaliyyətinizdə uğurlar arzulayıram!***

***Bayramınız mübarək olsun!***

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının daxili işlər naziri,*
*general-polkovnik*




***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il mart ayının 16-da Şəmkir Rayon Polis Şöbəsinin inzibati binasında Gədəbəy, Daşkəsən, Tovuz, Ağstafa, Qazax və Şəmkir şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 15.03.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***






# ANDLARI VƏTƏNDİR, adları da Vətənlə qoşa çəkilir

Bir qərinəyə yaxın, artıq 31 ildir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, sözün əsl mənasında, xalqımızın əmin-amanlığı, ərazi bütövlüyümüzün toxunulmazlığı, dövlətçiliyimizin daha da güclənməsi naminə fədakar xidmətini davam etdirir.







Ötən illərdə Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər zaman böyük məsuliyyətlə yanaşıb və ona göstərilən yüksək etimadı doğrultmağa çalışıb. Danılmaz faktdır ki, Daxili Qoşunların inkişaf və yüksəliş yolu ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Daxili Qoşunlar ulu öndərin xüsusi diqqət və qayğısı nəticəsində formalaşıb, inkişaf edib, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.

Daxili Qoşunlar yarandığı gündən ölkə daxilində ictimai təhlükəsizliyin təmin olunması ilə yanaşı, Vətənin müdafiəsində də iştirak edib. Birinci Qarabağ müharibəsində hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz iz qoyub.

Ümummilli lider tərəfindən 1995-ci il martın 9-da imzalanmış Fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan olunub. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüş əməliyyatlarına ilk dəfə olaraq 1992-ci il mart ayının 12-də başlayıb.

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti yeni mərhələyə qədəm qoyub, onun təyinatından irəli gələn vəzifələrin icrasında zəngin təcrübə qazanılıb, geniş quruculuq işləri aparılıb, maddi-texniki baza yenilənib, beynəlxalq hərbi əməkdaşlıq əlaqələri qurulub, Daxili Qoşunlar döyüş hazırlığına, hərtərəfli təchizatına, müasir silah-sursatına, texnikasına görə Avropanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlib.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsində hərbi qulluqçularımız şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini veriblər.

Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının daim nəzarətindədir. İstər cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə edib. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlib.

Dəmir nizam-intizamın hökm sürdüyü Qoşunlarda şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir və onlar dövlətə, xalqa, Ali Baş Komandana məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti və döyüş ruhu kifayət qədər yüksəkdir.

Ötən illər ərzində Daxili Qoşunların ictimaiyyətlə əlaqələrində də çox isti, doğma bir münasibət formalaşıb. Müntəzəm olaraq tələbələr, şagirdlər, habelə əsgər valideynləri, millət vəkilləri, dövlət, qeyri-hökumət təşkilatlarının nümayəndələri, incəsənət xadimləri, ziyalılar hərbi hissələrimizdə şəxsi heyət üçün yaradılmış hərtərəfli şəraitlə tanış olublar.



Daxili Qoşunlar keçdiyi yola, içdiyi anda sadiqdir. Hərbi qulluqçularımız xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olmaqla yanaşı, həm də işğalına son qoyulan torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanır, orada xidmət aparan polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərir, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlir.

*mayor Anar Əhmədov*

# SEVİNCİ, KƏDƏRİ BÖLÜŞDÜKLƏRİMİZ

**Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində polis veteranı Almaz Səttarova ilə görüşmək təşəbbüsünə Xətai Rayon Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti də qoşulub.** Beləcə, Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov və sahə inspektoru, polis mayoru Nuri Rəşadın iştirakı ilə bu görüş gerçəkləşib.



Şəki şəhərində doğulmuş Almaz xanım 1959-cu ildə Daxili İşlər Nazirliyində xidmətə qəbul olunub. Daha sonra Xətai rayonunda Daxili İşlər Şöbəsində azyaşlılar üzrə müvəkkil vəzifəsinə təyin olunub, 55 yaşında mayor rütbəsində təqaüdə çıxıb. 25 illik xidməti dövründə hətta bir çox cinayətin açılmasında fərqləndiyinə görə medallara layiq görülüb, qüsursuz xidməti ilə rəhbərliyin etimadını doğruldub.





***Rəis müavini H.Təmirov daxili işlər orqanlarında qüsursuz xidmət ilə seçilən həmkarımızı yad etməyin sevincini və qürurunu yaşamağın gözəl bir hiss olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, DİN rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunan veteranlarımız heç vaxt unudulmurlar.*** Bu görüş də bunun bariz nümunəsidir.

Sevincini sözlə ifadə etməkdə çətinlik çəkən 85 yaşlı həmkarımız onu yada saldıqlarına görə minnətdarlığını bildirib.




*****

**8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Səbail Rayon Polis İdarəsində də tədbir keçirilib.** Tədbiri giriş sözü ilə açan idarə rəisi, polis polkovniki Hikmət Qasımov daxili işlər orqanlarının sıralarında xanım əməkdaşların mühüm vəzifələr icra etdiklərini, ən çətin işlərin belə öhdəsindən layiqincə gəldiklərini və bu xidmətlərinin DİN rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

İdarə rəisi xanım əməkdaşları təbrik edərək, onlara möhkəm cansağlığı və peşə fəaliyyətlərində uğurlar arzulayıb.

*"Polis"*

# Əməkdaşımız ən ədalətli hakim seçilib

Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası "5 mart – Bədən tərbiyəsi və idman günü" münasibətilə ədalətli oyun sahəsində fərqlənənləri təltif edib. Müxtəlif nominasiyalar üzrə mükafatlandırılanlar arasında Sabunçu RPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Asif Məlikov da var.




Ağırlıqqaldırmada dörd dəfə SSR, bir dəfə Avropa çempionu olmuş həmkarımız hazırda beynəlxalq dərəcəli hakim kimi mötəbər yarışlarda ədaləti təmin edir. İdmandakı bu xidmətlərini nəzərə alan Komissiya əməkdaşımızı "Ədalətli oyun prinsiplərinə sadiq hakim" nominasiyası üzrə qalib elan edib.

# Polis necə doğmalaşır



Təhsil müəssisələrində müxtəlif mövzulara həsr olunan tədbirlərdə, keçirilən görüşlərdə polis əməkdaşları ilə gənclər arasında mənəvi bağlar daha da möhkəmlənir. Polis zamanla kimi üçün qardaşa, kimi üçün də əmiyə, yəni dosta-doğmaya çevrilir. Məktəblərdəki maarifləndirici tədbirlərin onların baxışında həm də bu gerçəkliyi canlandırması baxımından əvəzi yoxdur.

Bu yaxınlarda 90 nömrəli orta məktəbdə də narkomaniyanın zərərlərindən danışan Sabunçu RPİ-nin əməkdaşları təhsil müəssisəsinin kollektivinin və məktəblilərin düşüncəsində polisin o doğma, qayğıkeş obrazını aydın cizgilərlə çəkiblər.

Bunun necə baş verdiyini məktəbin rəhbərliyi qəzetimizə zəng edərək ifadə edib.

Deməli, təhsil ocağından bildirilir ki, həmin gün məktəbin qızlardan ibarət xor qrupu qonaqlar üçün musiqi nömrəsi ilə çıxış edərkən şagirdlərin geyimləri müxtəlif rənglərdə olub və bu, idarə rəisi, polis polkovniki Cavid Muradovun nəzərindən yayınmayıb. Tədbirdən sonra uşaqların hər birinin ölçüləri götürülüb. Bu günlərdə isə, 8 Mart - Qadınlar Günü ərəfəsində geyimlər qızlara hədiyyə edilib.

İndi dərc etdiyimiz bu foto da yalnız hədiyyənin sahiblərinə çatmasını göstərmir, həm də və daha çox polisin övladlarımıza, xalqımızın gələcəyinə nə qədər doğma, qayğıkeş münasibət bəslədiyini əks etdirir.

*R.Mehtiyev*

## Prezident təqaüdçüsü yazır:

# "Bizi kim qoruyur?"



***"Bizi kim qoruyur?" sualına yəqin ki, hamımız birmənalı olaraq doğmalarımız, - deyərik. Bəs, bu doğmalar tək valideynlərimiz, ailəmiz, qohumlarımızdırmı?***

Məktəbdə işlədiyim dövrdə polis əməkdaşlarının məktəbə gəlməyini, şagirdlərlə maarifləndirici söhbət aparmağını və mövzu ilə əlaqədar fikir mübadiləsi etməyini çox müşahidə etmişəm. Biz tədbirdən əvvəl şagirdlərə "polis bizi qoruyur",- deyirdik. Biz deyirdik, gələn polislər isə öz əməlləri, davranışları ilə onu göstərirdilər.

Danışmaq xəstəni türkəçarə yolu ilə müalicə etmək kimi bir şeydir: ya sağalar, ya sağalmaz! Ancaq müasir dövrdə bizə türkəçarə lazımdırmı? Xeyr. Bizə işinin peşəkarı olan həkim lazımdır. Deməli, bizə söz yox, əməl lazımdır! Polislər də əvvəlcə şagirdlərlə dostluq qurur, güvən yaradır, bu güvənlə, bu etibarla onları qoruduqlarına inandırırdılar. İnanmaq, inandırmaq üçün onlar fantaziya qurmur, gördüklərini, yaşadıqlarını, gələcəyi qorumaq naminə həyatlarını qurban verənlərin-narkotacirlərlə mübarizədə həlak olan polis polkovnik-leytenantı Namiq Musayevin, Daşqın Turabovun, Elçin Səfərlinin (yadımda onlar qalıb) yarım qalmış həyat hekayələrini sözlə ifadə olunmaz bir ağrı ilə anlatmağa çalışırdılar.

Dəfələrlə tədbirdən sonra risk qrupuna daxil olan şagirdlərin polislərə yaxınlaşmağını görmüşəm. Və görmüşəm ki, bu doğmalıq polis-şagird doğmalığından neçə addım ötədir.

Nə qədər "qadın, ana" sözlərinin böyüklüyündən danışsaq da, bəzən kişi zəhminin, kişi tərbiyəsinin yerini heç nə vermir. Ələlxüsus da tərbiyə edilən yeniyetmə oğlandırsa. Və bu zəhmin, bu tərbiyənin içində məhəbbət, doğmalıq varsa, nəticə mütləq gözəl olur.

Bir şagird varıydı. Əslində, orta səviyyədə oxuyan, tərbiyəli şagird idi. Ancaq bir az valideyn nəzarətsizliyi, bir az yeniyetməliyin verdiyi ərköyünlük və ya pis mühit onu da zərərli vərdişlərin əsirinə çevirmişdi. Gizlətməyə çalışsa da, bəzən onun əlində gördüyüm siqaret məni məyus edirdi. Ancaq onunla bu mövzuda geniş danışmaq üçün özümdə ixtiyar görmürdüm. Heç bilmirəm, ixtiyarım olsa idi, danışsaydım, məni dinləyəcəkdimi?

Sonradan eşitdim ki, həmin şagird polisə söz verib və bir də onun əlində siqaret görmədim. Məni isə şagirdin tək siqaret çəkməməyi sevindirmədi, həm də verdiyi sözün məsuliyyətini dərk etməyi sevindirdi. Axı o, kişidir, axı o, gələcəyin əsgəridi, axı o gələcəyin atasıdır.

Şagirdlərə "Polislər bizi qoruyur",- deyəndə haqlı idim. Mənim sözüm də öz təsdiqini tapmışdı.

İndi ölkəmizi və vətəndaşlarımızı qoruyanların verdiyi rahatlıqla başımın üstündə yanan, qarşısını buludların kəsməyə cürət etmədiyi Günəşə baxıram. Məncə, ən böyük xoşbəxtlik rahatlıqdı!

*Xəyalə Sevil,*
*AYB üzvü,*
*Prezident təqaüdçüsü*

# Məharət sınağı...

Martın 3-də səhər saatlarında Əlahiddə Çevik Polis Alayının qarşısında toplaşan polis əməkdaşlarının sayı artdıqca onların həyəcanları da artır, ciddi sınağa gəldikləri mimikalarından hiss olunurdu.

O gün daxili işlər orqanlarının əməkdaşlarına Daxili İşlər Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş normativlərə uyğun məharət dərəcələrinin verilməsi üçün keçirilən imtahanların sonuncu günü idi. Həmkarlarımızın xidməti, döyüş və fiziki hazırlıq dərslərini nə dərəcədə mənimsədikləri, nəhayət, bəlli olacaqdı və təkcə elə buna görə həyəcanlanmağa dəyərdi.

Bir qədər sonra mobil telefonlar əməkdaşlardan alınıb yoxlanış keçirildikdən sonra imtahan zalına buraxılış başladı.

Həmin an həyəcan hissi özünü daha aydın büruzə verirdi. Bu, zalın giriş qapısında polis mayorunun ürək döyüntülərinin artdığını həmkarına sübut etmək üçün əlini onun ürəyinin üstünə qoymasını təklif etməsindən də bəlli olurdu.

**Test imtahanı başlamazdan əvvəl Baş Kadrlar İdarəsinin rəis müavini, polis kapitanı Şakir Məmmədov** məharət dərəcələrinin əməkdaşın xidmət yerinin dəyişməsi və vəzifədə irəli çəkilməsində nəzərə alındığını xatırladaraq, verilmiş bir saatlıq vaxtdan səmərəli istifadə etməyi tövsiyə edib, onlara uğurlar arzuladı.



Birinci mərhələdə təqdim olunan 40 sualdan 20-si hər xidmət sahəsinin özünə aid olsa da, qalan suallar ümumi biliklərin öyrənilməsinə yönəlir. Növbəti mərhələyə buraxılmaq üçün minumum 30 sual doğru cavablandırılmalıdır. Nəticələrin kompüterdə avtomatik olaraq qiymətləndirilməsi imtahanın tam şəffaf və obyektivliyini təmin edir.

İmtahanın gedişinə Baş Kadrlar İdarəsinin əməkdaşları nəzarət edir, bəzən ortaya çıxan texniki məsələlərin həllində yardımçı olur, sakitliyi təmin edirdilər. Zala çökmüş dərin sükutu yalnız sualları vaxtından əvvəl cavablandırıb çıxan əməkdaşların ayaq səsləri pozurdu... Hər bir saatın tamamında zalı tərk edənləri yeniləri əvəz edir, eyni proses yenidən başlayırdı. Sualları doğru cavablandıranlar isə imtahanın ikinci mərhələsinə - fiziki hazırlıq səviyyələrinin sınağına hazırlaşırdılar.

Test imtahandan sonra turnikdə dartınma normativini yerinə yetirən əməkdaşların silahlı və silahsız özünümüdafiə bacarıqlarını DİN İdman Cəmiyyətinin peşəkar idmançı əməkdaşlarının da daxil olduğu komissiya qiymətləndirirdi. Bunun ardınca 100 və 1000 metr məsafəyə qaçış normativləri qəbul ediləndə əməkdaşlar arasında əsl yarış başladı...

İmtahan prosesi tam başa çatanda artıq günorta saatlarından xeyli ötmüşdü. Kimlərin məharət sınağından keçmiş sayıldığı indidən bəlli olmasa da, öz nəticələrindən razı qalanların sevincli simaları ilə, narazıların tərəddüdlü görkəmləri müəyyən qənaət hasil edirdi.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Həm zərifdir, həm də güclü...

Müasir dünya hər kəsi bacarığı və qabiliyyəti ilə sınağa çəkdiyindən qadınlar heç də kişilərdən geri qalmır, fəaliyyət göstərdikləri sahələrdə üzərilərinə düşən öhdəlikləri layiqincə yerinə yetirirlər...

O, həm zərif, həm də güclüdür. Kişi həmkarları ilə çiyin-çiyinə "paqon yükünü", "paqon məsuliyyətini" daşıyır. Əslində, onun məsuliyyəti digərlərinə nisbətən ikiqat artıqdır, valideynlərinin-atası polis polkovnik-leytenantı Sahib Nuriyevin, anası ehtiyatda olan polis zabiti Rahimə Heydərovanın davamçısıdır. Odur ki, onun leksikonunda "ağırdır", "mən bu yükü daşıya bilmərəm", "qadın işi deyil" kimi ifadələrə yer yoxdur. Vəzifəsinin də, vətəndaşlara göstərdiyi xidmətin də öhdəsindən sevə-sevə gəlir...



Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan 3 saylı "ASAN xidmət" mərkəzi üzrə regional qrupun kiçik inspektoru, polis baş serjantı Firuzə Nuriyeva 2016-cı ilin sentyabr ayından daxili işlər orqanlarında xidmət edir. F.Nuriyevanın vətəndaşların şəxsiyyət vəsiqəsilə təmin edilməsində, eləcə də köhnə nəsil vəsiqələri yeni biometrik vəsiqələrlə əvəzlənməsində zəhməti var sözünü inamla deyə bilərik. Deyir ki, bəzən şəxsiyyət vəsiqələrinin dəyişdirilməsi zamanı müəyyən çətinliklərlə üzləşir. Ancaq buna baxmayaraq aidiyyəti qurumlarla əlaqə saxlayır, müraciət edənin məlumatlarını dəqiqləşdirir, adda və ya soyadda yaranmış problemi ortadan qaldıraraq vətəndaşları məmnun yola salır.

Bu fotonu bazar günü iş masasının arxasında çəkmişik. Hamı üçün istirahət günü sayılsa da onun üçün iş günüdür. Özünün də dediyi kimi: "Bax, bu ömrə polis ömrü deyirlər, sevincli, kədərli anları ilə"...

Gözəl və güclü olmaq qadınlara yaraşır. Biz də "Polis"in kollektivi olaraq qadın həmkarlarımızın timsalında bütün Azərbaycan xanımlarını "8 Mart - Beynəlxalq Qadınlar Günü" münasibətilə təbrik edir, onlara həmişə gözəl, bahar təravətli günlər arzulayırıq!

*Teymur Əlizadə,*
*polis mayoru*

# Yurdumuza yaz gəlir...

Novruzun çərşənbələrindən üçüncüsü dünən yurdumuza qədəm qoydu. Xalq arasında ona Yel çərşənbəsi, Külək çərşənbəsi, Hava çərşənbəsi, Yelli çərşənbə, Küləkoyadan çərşənbə deyirlər. Beləcə, Boz ayın müqəddəs çərşənbələrindən sayılan və təbiətin ünsürləri ilə bağlı olan Sudan içdik, Oddan keçdik, indi də Küləyin həzin mehinə bələnirik.

İnanclara görə, bu çərşənbə axşamında oyanan külək ərzi dolaşaraq suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində əsən mehin də, küləyin də ahəngində bir hərarət olur. Gün ərzində havanın bir neçə dəfə dəyişməsi küləyin təmizlənməsi kimi başa düşülür. Hər bir çərşənbənin öz adı, öz mənası, öz yozumu var. Dastanlarımızda, eləcə də əski etiqadlarda Yer üzündə küləyin iki rəngi göstərilir: qara və ağ.

Hətta deyimlərdə belə bir ifadə var ki, hansı qarğışdan, xoşa gəlməyən ifadədən narazılıq yaranarsa, nənələr tez deyərdi: "Ağzından qara yellər aparsın". Yaxud da elə, obaya, ailəyə, nəslə xeyir-dua verəndə söyləyərdilər: "Üstünüzə ağ yellər əssin". Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə dəyişməsi əslində onun özünün - küləyin - havanın təmizlənməsi, yenilənməsi kimi qəbul edilir.

*Ruhiyyə Zahidqızı*

# Çempionat başa çatıb

**27 fevral - 01 mart tarixlərində DİN İdman Cəmiyyətində “Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü il dönümü”nə həsr olunmuş DİO əməkdaşları arasında silahsız özünümüdafiə üzrə şəxsi və komanda birinciliyi uğrunda çempionat keçirilib.**



Yarışda DİN-in Daxili Qoşunların Baş İdarəsinin, Baş Dövlət Yol Polisi İdarəsinin, Nəqliyyatda Baş Polis İdarəsinin, Baş Mühafizə İdarəsinin, Bakı Şəhər Baş Polis İdarəsinin, Polis Akademiyasının, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin, Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunun 72 idmançı əməkdaşı gücünü sınayıb.

Polis kapitanı - Tunc Abbas (67), polis baş serjantları Ənvər Nəhmədov (80), Ayaz Qafarov (97), polis serjantları Ruslan Pirəliyev (73), Nihad Cəfərov (+97) və MAXE çavuş İsrafil Musasoylu (88) kiloqram çəki dərəcələrində I yeri tutublar. Polis baş serjantı - Əlisafa Cabbarlı (97), polis serjantları Hüseynağa Qasımov (80), Bəşir Hüseynzadə (+97), kursant Rəsul Rzayev (88), MAXE çavuşlar Fəqan Əliyev (67), Nurlan Hacıyev (73) kiloqram çəkidə II yerə sahib çıxıblar. Polis serjantları Vitaliy Şuvayev (73), Sübhan İspəndiyarlı (97), kursant Temuraz Məmmədov (80), MAXE çavuşlar Elnur Quluyev (67), Ceyhun Qafarov (88) kiloqram çəkidə bürünc medal qazanıblar.

Yarışın yekunlarına görə komanda birinciliyində Bakı Şəhər Baş Polis İdarəsi ən güclü olub, Daxili Qoşunların Baş İdarəsi II, Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taboru isə III yerlə kifayətləniblər.

Sonda fərqlənmiş əməkdaşlara qiymətli mükafatlar və diplomlar təqdim edilib.

Qeyd edək ki, yarışın baş hakimi DİN İdman Cəmiyyətinin İdmanın təşkili şöbəsinin rəisi, polis polkovniki Munir Orucov olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## Mükafatlı sual rubrikası



**“Mən inamla deyə bilərəm ki, heç kəsi düşünülmüş şəkildə incitməmişəm, ancaq sizi buna inandırmağı bacarmıram, çünki bizim söhbət etməyimiz üçün çox az bir vaxt ayrılıb. Mənə elə gəlir ki, bizdə də başqa yerlərdə olduğu kimi ölüm işi ilə bağlı məhkəmə prosesi bir gün dəyil, bir neçə gün davam eləsəydi, sizi özümün günahsızlığıma inandıra bilərdim; indi mənə verilən qısa vaxt ərzində belə bir böyük yalanı təkzib eləmək çox çətindir”.**

***Sözlər kimə məxsusdur?***

**Vatsap:**
**+99455-875-16-39**

## BİZƏ YAZIRLAR...



“Bu gün ölkəmizdə vətəndaşlarımızın görmək arzusunda olduğu polis imici formalaşıb. Gündəlik həyatımızda baş verən neqativ halların aradan qaldırılmasında onların rolu danılmazdır. Üzləşdiyim problemlə əlaqədar Binəqədi Rayon Polis İdarəsinə müraciət etdiyim zaman operativ reaksiya məni çox məmnun etdi. Tez bir zamanda mənə dəyən maddi ziyan tam ödətdirildi. Göstərilən diqqətə və həyata keçirilən operativ tədbirlərə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığımı bildirirəm”. Bu fikirlər **Biləsuvar rayon Əsgərabad kənd sakini Əli Sağıyevin** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

**Sosial şəbəkə istifadəçisi Anjelika Tarşinova** ona məxsus mopedin oğurlanması ilə bağlı müraciətinə operativ şəkildə baxılmasına, eləcə də qısa zaman kəsiyində tapılmasına görə Səbail RPİ 9-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Bəhruz Əzizov yazır:** “Cinayətdən və cinayətkardan bizi qoruyan polislərimizin hər zaman harayımıza yetişməsi özümüzü güvənli hiss etməyimizə səbəb olur. Bunu deməyə əsasım var: Belə ki, mənə qarşı olan dələduzluqla bağlı müraciətimə operativ və obyektiv yanaşılması məndə polisə olan inamı, etibarı daha da artırdı”.

**Asiman Mərdanova, Elşad Məmmədov və Şahin Zahidzadə** müraciətlərinə operativ şəkildə baxılaraq probemlərinin həllini tapmasında onlara göstərilən köməkliyə görə Azərbaycan Polisinə təşəkkürlərini ifadə edirlər.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Qələbə sevincini yaşadılar

**Bu günlərdə DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə Saatlı Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş növü üzrə bölgələr arasında yarış keçirilib. Turnirdə 18 şəhər və rayon polis orqanlarını 90 idmançı təmsil edib.**



İki mərhələdən ibarət yarışda əvvəlcə əməkdaşlar onlara verilən 5 nəzəri sualı cavablandırmalı olublar. Düzgün cavab verən və növbəti tura vəsiqə qazananlar isə tatami üzərində güclərini sınayıblar.

DİN-nin İdman Cəmiyyətinin əlbəyaxa döyüş üzrə baş məşqçi-müəllimi, Prezident mükafatçısı, beynəlxalq dərəcəli hakim Rəsul Məmmədovun və Cəmiyyətin fiziki hazırlıq şöbəsinin inspektoru Sərxan Quluzadənin hakimlik etdiyi yarışda 5 əməkdaşla iştirak edən Şirvan Şəhər Polis Şöbəsinin komandası daha böyük uğura imza atıb. Polis baş serjantları Murad Gözəlov və Əhliman Nərimanov 97 kiloqram və yuxarı çəki dərəcələrində 1-ci yerə, polis serjantı Əli İsmayılov 88 kiloqram çəki dərəcəsində 2-ci yerə, polis baş leytenantı Xalid Bünyadov isə 67 kiloqram çəki dərəcəsində 3-cü yerə layiq görülüb.

Yarışdan sonra Şirvan ŞPŞ-nin rəhbərliyi qazandıqları nailiyyətlərə görə idmançıları təbrik edib, idman və peşə fəaliyyətlərində uğurlar arzulayıb.

*Nizam Həmidov,*
*polis kapitanı*

# Əməlini etiraf etdi

## Vətəndaşa dəymiş ziyanın ödətdirilməsi təmin olunub



Bakı şəhər sakini Mobil Qasımov təqaüdünün yenidən bərpasını təmin etmək adı ilə 7 min manatını ələ keçirən şəxs barədə Xəzər Rayon Polis İdarəsinə müraciət edib.

RPİ-nin müstəntiqi, polis polkovnik-leytenantı Elvin Cəfərov “Polis”ə bildirdi ki, aparılan əməliyyat tədbirləri nəticəsində şübhəli bilinən Elşən İbrahimov saxlanılaraq İdarəyə gətirilib. Dindirilmə zamanı E.İbrahimov bildirib ki, o M.Qasımovun etibarından sui-istifadə etməklə gəlir əldə etmək qərarına gəlib. Elə bu məqsədlə də tanışını kəsilmiş təqaüdünü bərpa edəcəyinə inandırıb. Əvvəlcə Mərdəkanda yerləşən “Abşeron sanatoriyası”nın yaxınlığında Mobildən 3 min manat alıb. Bir-neçə gün keçdikdən sonra sənədlərin düzəlməsinə az vaxt qaldığını, tezləşməsi üçün yenə əlavə pul ödəməli olduğunu deyib. E.İbrahimov “Günəşli Nevroloji Sanatoriyası”nın yaxınlığında ona 4 min manat da verib.

E.Cəfərov onu da qeyd etdi ki, E.İbrahimov istintaqdan gizlənsə də aparılan uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq istintaqa təhvil verilib. O, əməlini etiraf edib. M.Qasımova dəymiş maddi ziyan tam ödətdirilib.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Fevralın 14-dən 21-dək olan müddətdə Bakı şəhər sakini olan bir nəfərin bank hesabından 20 min manatın oğurlanması barədə polisə məlumat daxil olub.

**Səbail RPİ 39-cu Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən paytaxt sakini T.Axundov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Səbail rayonunun Badamdar qəsəbəsindəki mənzillərin birindən oğurluq edilməsi barədə **41-ci Polis Bölməsinə** məlumat daxil olub.

Polis əməkdaşları tərəfindən müvafiq araşdırmalar aparılıb və ötən ilin dekabr ayından cari il fevralın 26-dək olan müddətdə mənzildən 120 min ABŞ dolları dəyərində qızıl-zinət əşyalarının qeyri-aşkar şəraitdə oğurlanması məlum olub.

Keçirilən əməliyyat tədbirləri nəticəsində oğurluğun Bakı şəhər sakinləri S.Rzabəyli və tanışı E.Ağayev tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən olunub və onlar saxlanılıblar.

◆◆◆

Xətai rayonu ərazisində yerləşən gözəllik salonlarının birində orada işləyən qadının içərisində 1300 manatı və bank kartları olan cüzdanının oğurlanması barədə polisə məlumat daxil olub.

**Xətai RPİ 36-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən Laçın rayon sakini, əvvəllər də eyni əmələ görə məhkum olunmuş T.Bədəlova müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Lənkəran Şəhər-Rayon Polis Şöbəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Astara rayon sakini, əvvəllər məhkum olunmuş E.Əsədovdan 5 kiloqram 20 qram heroin, 1 ədəd “Makarov” markalı tapança, patron darağı və 8 ədəd patron götürülüb.

◆◆◆

Martın 1-də səhər saat 05:00 radələrində Binəqədi rayonunun Biləcəri qəsəbəsi ərazisində Bakı şəhər sakini Ş.Mirzəzadənin idarə etdiyi “Toyota” markalı avtomobildə sərnişinləri tərəfindən bıçaqla hədələnərək pulunun və mobil telefonunun talanması barədə polisə məlumat daxil olub.

**Binəqədi RPİ 6-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluq əməlində şübhəli bilinən Beyləqan rayon sakini, əvvəllər məhkum olunmuş N.Əliyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Saatlı Rayon Polis Şöbəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Mustafabəyli kənd sakini C.Camalovdan nömrəsi silinmiş “AK-74” markalı avtomat silah, 60 ədəd patron və 2 ədəd patron darağı götürülüb.

◆◆◆

Fevralın 14-də Qobustan qəsəbəsində yaşayan bir qadının evində aldadılaraq pulunun və geyim əşyalarının alınması, habelə qohumu olan azyaşlı qızın qızıl sırğalarının soyğunçuluq yolu ilə talanması barədə **Qaradağ RPİ-nin 11-ci Polis Bölməsinə** məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən Bakı şəhər sakini G.Vəliyeva müəyyən olunaraq saxlanılıb.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik